Fizzə Quliyeva
*Naxçıvan Dövlət Universiteti İncəsənət fakültəsinin müəllimi*



# Bəhruzun davamçısı...

"Dünya bir pəncərədir - hər gələn baxıb gedər". Məmməd Qasımovun sənət fenomenindən bu deyim uzaqdır. Bu gün də rəssamın qoyub getdiyi sənət irsinə hər gələn onun pəncərəsindən baxıb, bəhrələnib gedər. Uzun illər çalışdığı Naxçıvan Teatrında nə az, nə çox 99 tamaşanın bədii tərtibatı Məmməd Qasımovundur. Bundan əlavə o, dəvətli rəssam kimi Gəncə Dövlət Dram Teatrında, Gürcüstan Azərbaycan Dram Teatrında, İrəvan Azərbaycan Dram Teatrında ayrı-ayrı tamaşaların quruluşçu rəssamı olmaqla 45 illik yaradıcılıq yolunda tamaşaların sayını 105-ə çatdırıbdır. 1952-ci ildən ömrünün son günlərinədək tam 35 il, taleyini həmişəlik bağladığı doğma Naxçıvan Teatrının baş rəssamı olub.

Rəssamın yaradıcılıq fəaliyyəti əgər demək mümkünsə, XX əsr Azərbaycan incəsənətinin intibah dövrünə təsadüf edir...

Uzaq 1925-ci il Qasımovlar ailəsi üçün əlamətdar illərdən biri oldu. O zaman 1920-ci ildən Tiflisdə yaşayan, əslən naxçıvanlı Məşədi Ələkbərin ikinci oğlu dünyaya göz açdı.

Hələ məktəb yaşlarından teatra olan həvəsini gizlədə bilməyən Məmməd tez-tez Tiflisdə, Naxçıvanda teatra getməyə başladı. Əslən Təbrizdən olan və ordakı teatrda bir müddət çalışdıqdan sonra 1920-ci ildən Naxçıvan Dövlət Dram Teatrında görkəmli aktyor və rejissor kimi tanınan Səməd Mövləvi Məmmədin istedadına, yaradıcılıq qüvvəsinə bələd olduqdan sonra - Cəlil Məmmədquluzadənin "Ölülər" (1943) tamaşasının bədii quruluşunu ona etibar elədi. İlk sınaqdan uğurla çıxan M.Qasımov Naxçıvan Teatrında ikinci tamaşanı da S.Mövləvilə birgə işlədi. Bu, Ü.Hacıbəyovun "Ər və arvad" operettası oldu.

Orta məktəbi 1943-cü ildə əla qiymətlərlə başa vurmuş və sovet hökumətinin müvafiq qərarına əsasən ölkənin istənilən ali məktəbinə imtahansız daxil olmaq hüququ qazanan Məmməd Qasımov elə həmin ilin payızından Tbilisi Rəssamlıq Akademiyasında təhsil almağa başlayır. Burada böyük rus rəssamı İ.Repinin tələbəsi, məşhur rəssam M.İ.Toidzedən və digər görkəmli fırça ustalarından dərs alır. Tbilisi Rəssamlıq Akademiyasında təhsil alarkən M.F.Axundov adına Gürcüstan Dövlət Azərbaycan Dram Teatrında A.Məşədibəyovun "Toy kimindir?", F.Əmirovun "Ürəkçalanlar" musiqili komediyalarına bədii quruluş verir. Gözlənilmədən Tbilisi Rəssamlıq Akademiyasında Azərbaycan bölməsinin bağlanma səbəbindən ali təhsilini başa çatdıra bilməyən M.Qasımov doğma yurduna qayıdaraq Naxçıvan Teatrında öz fəaliyyətini davam etdirir. 1947-1952-ci illərdə isə Azərbaycan Dövlət Rəssamlıq Məktəbində ixtisas təhsili alır. Bakıda olmasına baxmayaraq, Naxçıvan Dövlət Dram Teatrında hazırlanan bir neçə tamaşaya rəssam kimi dəvət olunur və çox çəkmir ki, 1952-ci ildə Naxçıvan Teatrının baş rəssamı kimi öz yaradıcılığının yeni mərhələsinə qədəm qoyur. Naxçıvan Teatrında Bəhruz Kəngərli, Adil Qazıyev, Şamil Qazıyev kimi ustad sənətkarlardan sonra öz dəst-xətti ilə seçilən rəssam hər dəfə tamaşanın məzmun və ideyasına uyğun olaraq milli ornamentlərdən yararlanmağı özünə borc bilir.

105 tamaşaya dekor, geyim və qrim eskizləri işləyən rəssam adını Azərbaycan Teatrı salnaməsinə əbədi olaraq həkk edə bilibdir. Səməd Vurğunun "Fərhad və Şirin", "Vaqif", Cəfər Cabbarlının "Almaz", Aleksandr Ostrovskinin "Cehizsiz qız", Ənvər Məmmədxanlının "Od içində", Hüseyn Cavidin "Şeyx Sənan", "Səyavuş", "Şeyda", Fiqeyredonun "Ezop", C.Məmmədquluzadənin "Anamın kitabı", K.Qoldoninin "Mehmanxana sahibəsi", M.İbrahimovun "Yaxşı adam", İ.Əfəndiyevin "Atayevlər ailəsində", B.Vahabzadənin "Yağışdan sonra", İ.Səfərlinin "Göz həkimi", Kəmalənin "Məhsəti", H.Razinin "Odlu diyar", R.Kauqverin "Ağır cəza", Nazim Hikmətin "Bayramın birinci



günü" və bu sıradan saysız-hesabsız tamaşalar... onlarla əsərin tərtibatı, bədii yozumu...

Məmməd Qasımovun bir quruluşçu rəssam kimi yaradıcılıq potensialını biz Boris Lavrenyovun "Hücum" (əsl adı "Tarmar") tamaşasının bədii səhnə həllində aydın görə bilərik. Premyerası Naxçıvan Dövlət Musiqili Dram Teatrında 1967-ci ildə baş tutan tamaşa oktyabr inqilabının 50 illiyinə həsr olunmuşdu. Həmin vaxt Leninqrad Akademik Dövlət Dram Teatrının iki nəfər əməkdaşı Naxçıvana gəlmiş və həmin tamaşaya baxdıqdan sonra onun yaradıcı heyətini-quruluşçu rejissor Baxşı Qələndərlini, aktyorları təbrik edərək quruluşçu rəssam Məmməd Qasımovun səhnə həllindən çox razı qaldıqlarını söylədilər. Etiraf etdilər ki, - "Azəbaycanın bir əyalət teatrında bu məşhur əsərin çox yüksək səviyyəli bir tamaşa kimi təqdim olunacağını heç gözləməyiblər. Görkəmli sovet rejissoru və məşhur teatr rəssamı Nikolay Akimov istər rejissor, istərsə rəssam kimi heç bu əsəri belə yüksək səviyyədə təqdim edə bilməyib. Səhnədə gəminin görünməsi bizi həqiqətən heyrətə gətirdi. Siz xoşbəxtsiniz ki, teatrınızda belə geniş dünyagörüşə malik, istedadlı bir rəssamınız vardır".

Məhz bu tamaşadan sonra Məmməd Qasımov 1967-ci ildə əməkdar incəsənət xadimi fəxri adına layiq görüldü.

Teatr rəssamının işi tamaşa haqqında ilk baxışdan təsəvvür yaratmaqdır. Çünki, pərdə açılanda ilk olaraq rəssamın işi nəzərə çarpır. Əsərin yaratdığı təəssüratdan asılı olaraq tamaşaya ilkin qiymət də bununla bağlıdır. Rəssam öz yozumu ilə tamaşanın nüfuzunu həm artırar, həm də azalda bilər.

M.Qasımovun yaradıcılığı kimi pedaqoji fəaliyyəti də şaxəlidir. Naxçıvan Şəhər Pionerlər Evində (indiki Heydər Əliyev adına Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi) Məmməd Qasımovun şəxsi təşəbbüsü ilə ilk rəssamlıq studiyası təşkil olunur və 1950-60-cı illər ərzində o özü bu studiyaya rəhbərlik edir.

Studiyanın 30 nəfərdən artıq yetirməsi sonralar respublikanın və SSRİ-nin müxtəlif ali orta ixtisas məktəblərində təhsil alır, adlı-sanlı rəssamlar kimi tanınırlar. Rəcəb Rəcəbov, Həmid Qasımov (M.Qasımovyn kiçik qardaşı), Babək Abazərli, Məmməd Şirzadov, Mustafa Məmmədov, Nəriman Xəlilov, Arif Bəktaşi, Ramiz Hüseynov, Elman Cəfərov, Mircəlil Seyidov, Yuran Məmmədov və başqalarına demək olar ki, rəssamlığın əlifbasını məhz M.Qasımov öyrədibdir. Tələbələrindən R.Rəcəbov, Y.Məmmədov, M.Şirzadov, H.Qasımov, B.Abazərli sonradan Rəssamlar İttifaqına üzv oldular.

M.Qasımov geniş qəlbli, işgüzar rəssam və pedaqoq olmaqla yanaşı həm də gözəl təşkilatçı idi. Xalq rəssamı Maral Rəhmanzadənin 1970-ci il iyunun əvvəllərində muxtar respublikada ilk fərdi sərgisi açılmışdı. Bu işin təşəbbüskarı məhz M.Qasımov idi. Maral xanım sərginin araya-ərsəyə gəlməsində M.Qasımova minnətdarlıq etmiş, kataloqlarından birinə öz ürək sözlərini yazaraq ona hədiyyə etmişdi. Həmin kitab indi də rəssamın şəxsi arxivində həmin günlərdən əziz bir xatirə kimi qorunub saxlanmaqdadır.

1970-ci ildə Rəssamlar İttifaqının üzvlüyünə qəbul olunan M.Qasımov bir il sonra yenicə yaradılan Naxçıvan Rəssamlar Birliyinin ilk sədri seçildi. Bu vəzifəyə o zaman respublikanın rəhbəri Heydər Əliyev tərəfindən tövsiyə edilmişdi. M.Qasımov, həmin birliyin qurulmasında və formalaşmasında böyük rol oynadı. Naxçıvanda, Azərbaycanın başqa bölgələrində yaşayıb yaradan rəssamların fərdi sərgilərini təşkil etməkdə, gənc istedadların üzə çıxarılmasında onun xidmətləri danılmazdır.

Bununla yanaşı ədəbi və publisistik yaradıcılığa meyl göstərən Məmməd Qasımov teatr rəssamlığına, səhnəqrafiyaya, görkəmli rəssamların həyat və yaradıcılığına həsr olunmuş çoxlu məqalənin, 100-dən artıq rübainin, 50-ə yaxın şerin müəllifidir. M.Qasımov həmçinin Y.V. Çəmənzəminlinin "Qızlar bulağı" romanını səhnələşdirərək qədim tariximizə dair çox maraqlı bir pyesə də imza atmışdır. Yerli şair və yazıçılardan Hüseyn Razi, Müzəffər Nəsirli, Hüseyn İbrahimovun Naxçıvanda çap olunan bir sıra

kitablarının bədii tərtibatı da onundur.

Məmməd Qasımovun yaradıcılığına aid materiallara C.Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyində, teatr fondunun eksponatları arasında rast gəlmək olar...

Məmməd Qasımov həm də sözün əsl mənasında qeyrilərinə örnək olası bir ailə başçısı idi. Özü də teatral sənətə bağlı bir ailənin... Ömür - gün yoldaşı, görkəmli şair - dramaturq, milli dramaturgiyamızda mənzum pyeslərin ilk qadın - müəllifi, Əməkdar incəsənət xadimi, Prezident təqaüdçüsü Kəmalə xanım ilk pyesi olan "Məhsəti" mənzum faciəsinin araya-ərsəyə gəlməsində və eləcə dramaturq kimi yetişməsində ömür-gün yoldaşı Məmməd müəllimin qayğısını və tövsiyələrini qürurla xatırlayır. 1968-1987-ci illərdə isə Naxçıvan Teatrında onunla bərabər çalışdığı dövrü nisgillə yada salır. Kəmalə xanım 22 il həmin qocaman sənət ocağında ədəbi hissə müdiri işləmişdir.

M.Qasımovun böyük oğlu Ələkbər Qasımovun Naxçıvanda fəaliyyət göstərən Dövlət Kukla Teatrının yaranmasında və formalaşmasında əvəzsiz xidmətləri olub. Atasının xatirəsini hər zaman böyük ehtiramla yad edən Ələkbər müəllim atasının qoyub getdiyi irsi bu gün də qayğı ilə qoruyur. O, atasının özünə doğma ev saydığı qədim Naxçıvan Teatrının 125 - illik tarixi yolunda burda tamaşaya qoyulan tərcümə əsərlərinə həsr olunmuş dissertasiya müdafiə eləyib. Hazırda AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutu teatr və musiqi şöbəsinin böyük elmi işçisidir. Eyni zamanda Naxçıvan Dövlət Universitetinin incəsənət fakültəsində teatr və mədəniyyətşünaslıq kafedrasının müəllimi kimi dərs deyir.

Məmməd Qasımovun qızı Könül xanım isə atasının yolunu davam etdirir. Azərbaycan Dövlət



Rəssamlıq Məktəbinin məzunu kimi bir müddət Bakıda bərpaçı-rəssam kimi fəaliyyət göstərib. 1990-cı ilin ortalarından ailəsi ilə bərabər İstanbula köçəndən sonra da burdakı mərkəzlərin birində öz peşəsini layiqincə davam etdirməkdədir.

M.Qasımov ən məşhur teatr rəssamlarından biriydi. Naxçıvan Teatrının 100 illiyində çıxış edən sənətşünaslıq doktoru, professor Kərim Kərimovun dediyi söz indi də yaddaşlardan silinməyib: "Azərbaycanda səhnədən öz peşəsi ilə söz deyə bilən, adı böyük hərflərlə yazılası üç teatr rəssamı tanıyıram. Onlardan ikisi Bakıda - Nüsrət Fətullayev və Elçin Aslanov, üçüncüsü isə Naxçıvanda Məmməd Qasımovdur."

Lakin təəssüf ki, Naxçıvan Teatrının baş rəssamı Məmməd Qasımova doğma sənət ocağının həmin yubileyində iştirak etmək qismət olmadı. O, bu mərasimdən bir neçə ay əvvəl - 1987-ci il yanvar ayının 28-də, Naxçıvan şəhərində öz dünyasını artıq dəyişmişdi.

Bu il anadan olmasının 90 illiyi tamam olan görkəmli teatr rəssamı, indiki Naxçıvan Rəssamlar Birliyinin ilk sədri olmuş, əməkdar incəsənət xadimi Məmməd Qasımovun Naxçıvan şəhərində yubileyinin qeyd olunması, fərdi sərgisi və xatirəsinin əbədiləşdirilməsi onun yetirmələrinin, eləcə də hər bir sənətsevərin ürəyindən olardı...

